**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

________________

18.11.2022-ci il

# Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsi

| Sıra №-si | Alt komponentlərin tələbləri | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Məsul şəxslər* |
|---|---|---|---|---|---|
| **1. Müflisləşmə üzrə icraat haqqında qaydaların keyfiyyəti** | | | | | |
| **1.1. Müflisləşmə üzrə icraatlara başlanılması** | | | | | |
| 1.1.1. | 1. Borclu və kreditorların ləğvetmə və (və ya) sağlamlaşdırma prosedurları üçün müraciət etmək imkanının olub-olmaması<br><br>2. Müflisləşmənin başlanması üçün meyarlar | "Biznesin müflisləşməsi" işçi qrupunun təklifləri nəzərə alınmaqla "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda müflisləşmə ilə bağlı borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması ilə yanaşı, digər əsasların da müəyyənləşdirilməsinə dair müvafiq layihənin hazırlanması, eləcə də istehlakçıların da müflis elan edilməsi ilə əlaqədar beynəlxalq təcrübənin araşdırılması və nəticələri üzrə Komissiyaya məlumat təqdim edilməsi | 01.08.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.1.2. | Müflisləşmənin başlanması məqsədilə məhkəməyə müraciət edilməzdən əvvəl maliyyə çətinlikləri olan şirkətlər üçün mövcud olan prosedurlar | Maliyyə çətinlikləri olan şirkətlərin müflisləşməsinin qabaqcadan qarşısını almağa imkan verən mexanizmin hazırlanması imkanlarına baxılması, bu sahədə beynəlxalq təcrübənin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti),<br>Ədliyyə Nazirliyi | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.1.3. | Kreditorlarla çoxtərəfli müqavilələrin bağlanması üçün prosedurların mövcudluğu (məhkəmədənkənar restrukturizasiya) | "Biznesin müflisləşməsi" işçi qrupunun təklifləri nəzərə alınmaqla məhkəmədənkənar restrukturizasiya (out-of-court workouts) prosedurunun müəyyən edilməsi ilə bağlı beynəlxalq təcrübənin araşdırılması və nəticələri üzrə Komissiyaya müvafiq məlumat verilməsi | 01.09.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.1.4 | Korporativ borcluların qaçılmaz müflisləşməsini aradan qaldırmaq üçün mövcud hüquqi yolların, o cümlədən erkən xəbərdarlıq alətlərinin mövcudluğu və direktorların fidusiar öhdəlikləri | Şirkətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olduğu hallarda bu barədə müvafiq məlumatın şirkət tərəfindən elan edilməsinə nəzarət, nizamnamə kapitalının minimum miqdarının müəyyən edilməsi ("Biznesə daxilolma" indikatoru üzrə əlavə prosedur yaratma riski nəzərdən keçirilməklə), şirkətlərin məcburi kənar auditə cəlb edilməsi mexanizminin tətbiqi, maliyyə çətinlikləri olan şirkətlər üçün iflas prosesinə başlamadan öz biznes fəaliyyətini davam etdirməklə sağlamlaşdırma alətlərinin, eləcə də direktorların hüquq və öhdəliklərinin müəyyən edilməsi və bu öhdəliklərin pozulmasına görə məsuliyyətin nəzərdə tutulması ilə bağlı qanunvericiliyin araşdırılması və bu istiqamətdə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Samir Seyidəhmədli, Teymur Əhmədov, Abbas Abbasov, Rəşad Həsənli |
| **1.2. Borclunun aktivlərinin idarə olunması** | | | | | |
| 1.2.1. | 1. Borclunun biznes fəaliyyətini davam etdirməsi üçün vacib olan əməliyyatları həyata keçirmək imkanları<br>2. Müflisləşmə prosesi zamanı borclu şirkətin davam edən əməliyyatlarının maliyyələşdirilməsi üçün müflisləşmə proseduru başlandıqdan sonra kredit əldə etmək imkanı, habelə belə kreditin prioritetləşdirilməsi | Sağlamlaşdırma zamanı icra orqanının səlahiyyətləri tam və ya qismən saxlanılmaqla borclunun biznes fəaliyyətini davam etdirə bilməsinin (debtor-in possession) təsbit edilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi, o cümlədən qanunvericilikdə əmlak inzibatçısının müqavilələr bağlamaqla bağlı nəzərdə tutulmuş hüquq və vəzifələrinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və Komissiyaya təqdim edilməsi | 01.06.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Teymur Əhmədov, Samir Seyidəhmədli, Abbas Abbasov, Rəşad Həsənli |
| 1.2.2. | Borclunun həddən artıq ağır olan müqavilələrə və ya aktivlərə xitam vermək imkanları | Borclunun rentabelli olmayan, əlavə borc öhdəliklərinin yaranmasına və ya artmasına səbəb ola bilən əqdlərinə xitam verilməsi ilə bağlı beynəlxalq təcrübənin, habelə mövcud qanunvericiliyin araşdırılması və bu istiqamətdə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.06.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.2.3. | İcraatın dayandırılmasını tənzimləyən qaydalar, o cümlədən dövlət siyasəti maraqlarından irəli gələn məsələlərdə (məsələn, ətraf mühitin mühafizəsi) belə dayandırılmaya dair hər hansı istisnalar | Bu sahədə qabaqcıl beynəlxalq təcrübənin və onun ölkədə tətbiqi məsələsinin araşdırılması və nəticələri üzrə Komissiyaya müvafiq məlumat verilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə), Ədliyyə Nazirliyi | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| **1.3. Ləğvetmə və sağlamlaşdırma üzrə icraatların əhatə dairəsi** | | | | | |
| 1.3.1. | Sağlamlaşdırma planının təsdiqlənmə qaydası | Bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun 41-1-ci maddəsinin, eləcə də Nazirlər Kabinetinin 26.09.2018-ci il tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmiş “Borclunun sağlamlaşdırılması planının məzmunu”nun təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.3.2. | Kreditorların səsvermə hüquqları | “Biznesin müflisləşməsi” işçi qrupunda müvafiq müzakirələr aparılmaqla kreditorların səsvermə hüquqları ilə əlaqədar qanunvericiliyin və beynəlxalq təcrübənin (“Doing Business 2020” hesabatı çərçivəsində görülmüş işlər və ekspertlər tərəfindən verilmiş tövsiyələr nəzərə alınmaqla) araşdırılması və bu istiqamətdə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.3.3. | Ədalətlilik mülahizələri və ya qanuni hüquqların transformasiyası ilə bağlı sağlamlaşdırma planı üçün minimal tələblərin müəyyən edilməsi | “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası Qanununun VIII fəsli ilə Mülki Prosessual Məcəllə arasında tənzimləmədə mövcud olan prosessual normaların təkrarlanmasının aradan qaldırılması məqsədilə müvafiq təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi (Ali Məhkəmə cəlb edilməklə) | Teymur Əhmədov, Səid Musayev, Rəşad Həsənli |
| 1.3.4. | Sağlamlaşdırma planının təsdiq edilməsi şərtləri, saxtakarlıq halında onun ləğvi mexanizmləri | Kreditorların sayının artması, mövcud kreditorların hüquqlarının pozulması, kreditorların yığıncağının tələbi (öz hesablarına) ilə sağlamlaşdırma planında görülməli olan tədbirlərin icrası və ya gələcək icrasının mümkünlüyü məsələlərinin müstəqil auditor tərəfindən yoxlanılması, həmçinin saxtakarlıq halında sağlamlaşdırma planının ləğvi mexanizmi ilə əlaqədar müvafiq qanunvericilik layihələri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Samir Seyidəhmədli, Teymur Əhmədov, Abbas Abbasov, Rəşad Həsənli |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.3.5. | Narazı kreditorlarla bağlı xüsusi müdafiə tədbirləri | Beynəlxalq təcrübə nəzərə alınmaqla narazı kreditorlarla bağlı maddi xarakterli hüquqi müdafiə mexanizmləri ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə), Ədliyyə Nazirliyi | Samir Seyidəhmədli, Teymur Əhmədov, Abbas Abbasov, Rəşad Həsənli |
| 1.3.6. | Şirkət rəhbərliyinin müflisləşmə üzrə nümayəndə ilə əvəz olunması qaydası | Mövcud qanunvericilik təhlil edilməklə "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununda anlayışların dəqiqləşdirilməsi və bununla əlaqədar müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.04.2023 | İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Ədliyyə Nazirliyi | Teymur Əhmədov, Jalə Məmmədova Şirinova, Rəşad Həsənli |
| 1.3.7. | Ləğvetmə prosesində aktivlərin satışının təsdiq edilməsi və iddiaların təmin edilməsində kreditorların rolu | Ləğvetmə prosesində aktivlərin satışının təsdiq edilməsi və iddiaların təmin edilməsi zamanı kreditorların rolu ilə bağlı mövcud qanunvericiliyin və beynəlxalq təcrübənin araşdırılması ("Doing Business 2020" hesabatı çərçivəsində görülmüş işlər və ekspertlər tərəfindən verilmiş tövsiyələr nəzərə alınmaqla) və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Abbas Abbasov, Samir Seyidəhmədli, Teymur Əhmədov, Rəşad Həsənli |
| **1.4. Kreditorun iştirakı** | | | | | |
| 1.4.1. | Kreditorların müflisləşmə üzrə nümayəndənin təyin edilməsində və ya dəyişdirilməsində iştirak vəziyyəti | "Biznesin müflisləşməsi" işçi qrupunda müvafiq müzakirələr aparılmaqla kreditorların müflisləşmə üzrə nümayəndənin təyin edilməsində və ya dəyişdirilməsində iştirakı ilə bağlı mövcud qanunvericiliyin təhlil edilməsi və beynəlxalq təcrübənin araşdırılması, nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Samir Seyidəhmədli, Teymur Əhmədov, Rəşad Həsənli |
| 1.4.2. | Müflisləşmə zamanı işçilərin iddialarının (məsələn, ödənilməmiş əmək haqqı və ya ixtisar kimi) müdafiəsi üçün xüsusi hüquqi rejimin mövcud olub-olmaması | "Biznesin müflisləşməsi" işçi qrupunda müvafiq müzakirələr aparılmaqla müflisləşmə zamanı işçilərin iddialarının (məsələn, ödənilməmiş əmək haqqı və ya ixtisar kimi) müdafiəsi üçün xüsusi hüquqi rejimin tətbiqi sahəsində mütərəqqi təcrübələrin araşdırılması, belə rejimin ölkəmizdə tətbiqi imkanlarının qiymətləndirilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Samir Seyidəhmədli, Teymur Əhmədov, Rəşad Həsənli |

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.5. Müflisləşmə üzrə inzibatçının peşəkarlığı** | | | | | |
| 1.5.1. | Müflisləşmə üzrə mütəxəssis çərçivəsinin hərtərəfli peşəkar olub-olmamasının aşağıdakı məsələlər nəzərə alınmaqla qiymətləndirilməsi:<br>- kvalifikasiya;<br>- təlimlər;<br>- lisenziyalaşdırma və ya qeydiyyat tələbləri. | 1. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müflisləşmə üzrə mütəxəssis çərçivəsinin hərtərəfli peşəkar olub-olmaması ilə bağlı mövcud qanunvericilik normalarının təhlil edilməsi və bu istiqamətdə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| | | 2. "Biznesin müflisləşməsi" işçi qrupunda müvafiq müzakirələr aparılmaqla müflisləşmə üzrə inzibatçılar təyin olunmazdan əvvəl, onlara sistemli qaydada təlimlərin keçirilməsi ilə bağlı təhlillərin aparılması və zərurət yarandığı təqdirdə təlimçi bazasının formalaşdırılmasına dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Şahin Əliyev, Rəşad Həsənli, Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli |
| | | 3. Müflisləşmə üzrə peşəkar mütəxəssislə bağlı lisenziyalaşdırma və ya qeydiyyat tələblərinə dair mütərəqqi təcrübələrin araşdırılması, belə rejimin ölkəmizdə tətbiqi imkanlarının qiymətləndirilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Teymur Əhmədov, Abbas Abbasov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| **1.6. KOB subyektləri üzrə ixtisaslaşdırılmış prosedurlar** | | | | | |
| 1.6.1. | Müflisləşmə ilə bağlı qanunvericilikdə ödəmə qabiliyyəti olmayan mikro, kiçik və orta biznes subyektləri üçün sürətli ləğvetmə, eləcə də ödəmə qabiliyyəti olan belə subyektlər üçün sadələşdirilmiş prosedurlar əsasında sağlamlaşdırma imkanının olub-olmaması | "Biznesin müflisləşməsi" işçi qrupunda müvafiq müzakirələr aparılaraq qabaqcıl beynəlxalq təcrübə (UNCITRAL-ın müvafiq tövsiyələri əsasında) öyrənilməklə mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün sadələşdirilmiş iflas və sağlamlaşdırma prosedurlarının müəyyən edilməsi ilə əlaqədar təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Teymur Əhmədov, Abbas Abbasov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.6.2. | Mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün mövcud imkanların qiymətləndirilməsi:<br>- uyğunluq; | 1. Etibarlı fərdi borclular üçün borcun ödənilməsinə dair zəmanətlərin müəyyən edilməsi ilə bağlı qanunvericiliyin araşdırılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Teymur Əhmədov, Abbas Abbasov, Samir Seyidəhmədli, Rəşad Həsənli |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - başlama meyarları;<br>- idarəetmə aspektləri;<br>-prosesin dəyişdirilməsinin mümkünlüyü;<br>-etibarlı fərdi borclular üçün borcun ödənilməsinə dair zəmanətlərin mövcudluğu;<br>- iflas və sağlamlaşdırma ilə bağlı qanunvericilikdə müəyyən edilmiş daha qısa müddətlər. | 2. "Biznesin müflisləşməsi" işçi qrupunda müvafiq müzakirələr aparılmaqla və qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün iflas və sağlamlaşdırma müddətlərinin optimallaşdırılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| **1.7. Sərhədlərarası müflisləşmə** | | | | | |
| 1.7.1. | Transsərhəd müflisləşmə halları üzrə normativ hüquqi bazanın mövcudluğu və xarici müflisləşmə icraatlarının tanınması | "Biznesin müflisləşməsi" işçi qrupunun təklifləri nəzərə alınmaqla Sərhədlərarası Müflisləşmə haqqında UNCITRAL Model Qanununun qanunvericiliyə tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi | 01.12.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 1.7.2. | Yurisdiksiyaya aid xarici məhkəmə qərarlarının tanınması, digər ölkələrin məhkəmələri ilə əməkdaşlıq və hüquq seçimi üzrə aydın qaydaların mövcudluğu | "Biznesin müflisləşməsi" işçi qrupunun təklifləri nəzərə alınmaqla müflisləşmə ilə bağlı məhkəmə qərarlarının tətbiqi və icrası üzrə UNCITRAL Model Qanununun qanunvericiliyə tətbiqi ilə əlaqədar müvafiq tədbirlərin görülməsi | 01.12.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Abbas Abbasov, Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| **2. Müflisləşmə prosesləri üçün institusional və əməliyyat infrastrukturunun keyfiyyəti** | | | | | |
| **2.1. Müflisləşmə üzrə məhkəmələr və ya hakimlərin ixtisaslaşması** | | | | | |
| 2.1.1. | İflas məsələləri üzrə ixtisaslaşdırılmış məhkəmə və ya kommersiya məhkəməsində iflas məsələləri üzrə müvafiq bölmənin olub-olmaması (bütün iflas məsələlərinin onlara həvalə edilməsinin tələb edilib-edilməməsi), iflas məsələlərinin mövcud kommersiya məhkəmələrinə həvalə edilməsi vəziyyəti | İflas prosesinə məhkəmə vasitəsilə başlanması ilə bağlı Mülki Prosessual Məcəllə ilə "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanunu arasında uyğunsuzluğun aradan qaldırılması, məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlər sırasına iflas haqqında işlərin də daxil edilməsi məqsədilə müvafiq təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | Ədliyyə Nazirliyi (Ali Məhkəmə cəlb edilməklə), İqtisadiyyat Nazirliyi | Səid Musayev, Teymur Əhmədov, Sübhi Kazımov, Rəşad Həsənli |
| 2.1.2 | İflas məsələlərinə baxan hakimlər üçün sistemli qaydada müflisləşmə prosedurları üzrə ixtisaslaşmış təlimlərin təşkil edilməsi vəziyyəti | 1. İflas məsələlərinə baxan hakimlər üçün sistemli təlimlərin keçirilmə qaydası və proqramların hazırlanması | 01.08.2023 | Ədliyyə Nazirliyi | Şahin Əliyev |
| | | 2. Hakimliyə namizədlərin ilkin tədris kurslarında müflisləşmə və iflas məsələləri ilə bağlı mövzuların mütəmadi keçirilməsi | Mütəmadi | Ədliyyə Nazirliyi | Şahin Əliyev |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.2. Məhkəmənin avtomatlaşdırılması** | | | | | |
| 2.2.1. | Fəaliyyət göstərən elektron ədliyyə sisteminin əsas elementlərinə (e-müraciət, e-bildirişlər, məhkəmə rüsumlarının elektron şəkildə ödənilməsi, məhkəmə işlərinin daxili idarəetməsi, işin onlayn izlənməsi imkanı və ya prosessual sənədlərin məhkəmələrə və digər tərəflərə göndərilməsi) müflisləşmə hallarının daxil edilib-edilməməsi | 1. Kommersiya mübahisələri üzrə iddia ərizəsində cavabdehin elektron poçt ünvanının və ya mobil telefon nömrəsinin qeyd edilməsinin məcburi tələb kimi müəyyənləşdirilməsinə dair qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2023 | Ədliyyə Nazirliyi (Ali Məhkəmə cəlb edilməklə) | Rəşad Həsənli, Ağakərim Səməd-zadə, Səid Musayev |
| | | 2.“Elektron məhkəmə” informasiya sistemi vasitəsilə kommersiya mübahisələri üzrə iddia ərizəsinin və ona əlavə edilən sənədlərin digər tərəfin elektron kabinetinə, sahibkarın “Elektron məhkəmə” informasiya sistemində elektron kabineti olmadıqda isə iddia ərizəsi barədə bildirişin onun İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin informasiya sistemindəki elektron kabinetinə göndərilməsinin təmin edilməsi | 30.12.2022 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Ağakərim Səməd-zadə, Samir Seyidəhmədli |
| **2.3. Müflisləşmə icraatları (prosedurları) üçün xidmətlərin qarşılıqlı fəaliyyəti və informasiyanın ictimai əlçatanlığı** | | | | | |
| 2.3.1. | Müflisləşmə icraatlarının elektron hökumət xidmətlərinin tərkibinə daxil edilməsi və onların digər qurumlarla (o cümlədən kommersiya/biznes reyestrləri və hüquq-mühafizə orqanları) və müflisləşmə prosesində iştirak edən maraqlı tərəflərlə qarşılıqlı əlaqəsi | 1. Müflisləşmə (iflas) barədə iddia ərizələrinin formalaşdırılması və məhkəməyə göndərilməsi sahəsində elektron xidmətin təşkil edilməsi | 01.05.2023 | Ədliyyə Nazirliyi | Ağakərim Səməd-zadə |
| | | 2. Dövlət satınalmaları zamanı hüquqi şəxs və ya fərdi sahibkarla bağlı müflis elan olunma barədə “Elektron məhkəmə” informasiya sistemində saxlanılan məlumatların Dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edilməsinin təmin edilməsi | 01.01.2023 | Ədliyyə Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi | Ağakərim Səməd-zadə, Aynurə Quliyeva, Teymur Əhmədov |
| 2.3.2. | Bütün davam edən müflisləşmə icraatları, o cümlədən borclu haqqında məlumatlar, icraatın mərhələsi və müflisləşmə üzrə mütəxəssis haqqında məlumatlar əks olunan müflisləşmə reyestrinin mövcudluğu, bu məlumatın icraatın maraqlı tərəfləri üçün əlçatanlığı | Müflisləşmə prosesində olan sahibkarlıq subyektlərinə dair ayrıca reyestrin yaradılması ilə bağlı qiymətləndirilmənin aparılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Samir Seyidəhmədli, Aynurə Quliyeva |
| 2.3.3. | Müflisləşmə icraatlarının sayı və növləri, məhkəmənin çıxardığı qərarlar haqqında məlumatların ictimaiyyətə açıq olub-olmaması | 1. “Vahid məhkəmə portalı”nda müflisləşmə (iflas) ilə bağlı icraatlara dair ixtisaslaşmış hesabat formasının yerləşdirilməsi və onun avtomatik yenilənməsi imkanının təmin edilməsi | 01.12.2023 | Ədliyyə Nazirliyi | Ağakərim Səməd-zadə, Sübhi Kazımov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2. Müflisləşmə (iflas) ilə bağlı işlər üzrə anonimləşdirilmiş məhkəmə qərarlarının "Vahid məhkəmə portalı"nda ayrıca bölmədə yerləşdirilməsi imkanının yaradılması | 01.05.2023 | Ədliyyə Nazirliyi | Ağakərim Səməd-zadə |
| **2.4. Müflisləşmə üzrə inzibatçının praktiki peşəkarlığı** | | | | | |
| 2.4.1. | Müflisləşmə üzrə ekspertlərin təyin edilməsi zamanı ixtisas və təcrübə kimi seçim meyarlarına aid qaydaların tətbiq edilib-edilməməsi | Son bir neçə il ərzində təyin edilmiş əmlak inzibatçıları ilə bağlı məlumatların təhlil edilməsi və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Teymur Əhmədov, Samir Seyidəhmədli, Rəşad Həsənli |
| 2.4.2. | Təyin olunmazdan əvvəl müflisləşmə üzrə inzibatçılara sistemli qaydada təlimlərin keçirilib-keçirilməməsi | "Biznesin müflisləşməsi" işçi qrupunun təklifləri nəzərə alınmaqla müflisləşmə üzrə inzibatçılara sistemli təlimlərin keçirilməsi qaydasının və proqramının layihəsinin hazırlanması və tətbiqi | 01.09.2023 | Ədliyyə Nazirliyi (aidiyyəti beynəlxalq təşkilatlar və işçi qrupun üzvləri cəlb edilməklə) | Şahin Əliyev, Rəşad Həsənli, Teymur Əhmədov, Samir Seyidəhmədli |
| **3. Müflisləşmə üzrə məhkəmə icraatının həllinin səmərəliliyi** | | | | | |
| **3.1. Ləğvetmə və ya sağlamlaşdırma üzrə məhkəmə icraatının həlli müddəti və xərclər** | | | | | |
| 3.1.1. | Məhkəmə yolu ilə ləğvetmə və sağlamlaşdırma icraatını həll etmək üçün tələb olunan vaxt və xərclərin qiymətləndirilməsi<br>Prosesin həlli üçün ehtimal olunan vaxt- ərizənin verildiyi andan kreditorlara ödənilməli olan pulun bir hissəsinin və ya hamısının ödənilməsinə və ya sağlamlaşdırma planının təsdiqinə qədər olan müddət (təqvim ayları)<br>Prosesin ümumi xərclərinin (həm kreditorlar, həm də borcalanın çəkdiyi xərclər) şirkətin borcunun dəyərinə faiz nisbəti | 1. İflas prosesinin əvvəlindən sonuna qədər proseslər xəritəsinin hazırlanması, qanunvericilikdə müəyyən edilən və praktikada daha çox rast gəlinən müddətlərin müqayisəli şəkildə təhlili, hər mərhələ üzrə müddətlərin azaldılması və səmərəliliyin artırılması imkanlarının təhlil edilməsi, müddətlərin təkmilləşdirilməsi ilə bağlı monitorinqlərin aparılması və bu istiqamətdə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.08.2023 | Ədliyyə Nazirliyi (Ali Məhkəmə cəlb edilməklə), İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti) | Səid Musayev, Teymur Əhmədov, Samir Seyidəhmədli, Sübhi Kazımov, Rəşad Həsənli |
| | | 2. Müflisləşmə icraatı ilə bağlı mövcud xərc komponentlərinin, habelə həmin xərclərin azaldılması və səmərəliliyin artırılması imkanlarının təhlil edilməsi və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | Ədliyyə Nazirliyi (Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurası cəlb edilməklə) | Səid Musayev, Seymur Həmidov, Sübhi Kazımov, Rəşad Həsənli |

Qeyd: Aidiyyəti dövlət qurumları üzrə məsul şəxs qismində adları qeyd olunmuş əməkdaşlar icraçı qurumlar tərəfindən müvafiq tədbirlərin təşkili və icrası zamanı işçi qrupa münasibətdə koordinasiyanı və hesabatlılığı təmin etmək məqsədilə təyin olunmuşdur.